

**Marquba Abdurazaqova**

## Qız qardaşım

Yüzdə mehrin nuru parlıyor,
Gülüşlərin acıma çarə.
Bir də tatlı söylədiklərin,
Öylə tatlı, gözəldir öylə.

Qız qardaşım mənim üçün də,
İyi ol sən, sağlam, səlamət.
Mələk kimi təmiz qəlbini,
Tərk etməsin mehr, aqibət.

## Mən səni

Mən səni səssizcə, sakıt sevirəm,
Qapıya dikilir bu iki gözüm.
Xəyalda gəlirsən əlində güllər,
Mən utanacağım, yanacaq üzüm.

Mən səni səssizcə, sakıt sevirəm,
Sevgimi deməyə yol verməz ürək.
Sən mənim qəlbimdə, ovucumdasan,
Səni istəyirəm, yalnız bu tilək.

Səssizcə sevirəm, sakıt sevirəm,
Ürəklərdə olsun bitməz muhabbət.
Əgər səndə əyni bir niyyət varsa,
Təbii ki olacağıq bəxtəvər, xoşbəxt.

Ömrüm bağındakı gül,
Dikandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Çoxlu arzularım var
Ulduzlar kimi sonsuz,
Hətta kimin üçün o
arzu etmək imkansiz,
Axı arzusuz adam
bir bədən kimi cansız,
Arzular yaşattıram
İmkandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Ətirgülün görkünə
Aşıq olmayan varmı?
Gülü xəyal edənlər
Dikandan xəbərdarmı?
Məşəqqətsız arzuya
çatan adam da varmı?
Ömrüm bağındakı gül,
dikandan bəxtəvərım,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

Mənəm bir ağac kimi
günəşə əl uzadan,
Bəzən külək əsəndə
yarpaqlarını tökən,
Payızda arman, baharda
arzulara sahıbam,
Dörd mövsüm sınavına
mən həmişə hazıram,
Mən həyatı sevirəm,
çünki onda mən varım.

**Uyğunlaşdıran və hazırlayan:**
**Rəhmət Babacan**

Türküstan.- 2022.- 24-30 may.- S.12.